*Bütövlükdə müsəlman Şərqinin qürur, fəxarət günü - 28 may 1918-ci ildə təməli qoyulan Azərbaycan Xalq Cümhuriyyəti Türk və İslam dünyasında ilk parlamentli respublika və ilk demokratik, hüquqi və dünyəvi dövlət nümunəsi oldu. Müstəqil dövlət qısa zamanda böyük nailiyyətlər və qalibiyyətlər əldə etdi: dünyada ilk dəfə qadınlara seçmə-seçilmə hüququ verdi, qadın-kişi bərabərliyini təmin etdi, milli ordusunu qurdu, milli bank yaradaraq pul vahidini dövriyyəyə buraxdı, azad seçki üsuli-idarəsi yaratdı, beynəlxalq əlaqələr quraraq dövlətlərin ölkəmizin istiqlalını tanımasına nail oldu və ərazi bütövlüyünü qəbul etdirərək iqtisadi islahatlar həyata keçirdi. Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın siyasi şüur səviyyəsinin, intellektual və mədəni potensialının göstəricisi idi. Həmin dövrdə müstəqil dövlət yaratmaq uğrunda mübarizənin önündə gedən şəxslər - Əlimərdan bəy Topçubaşovun, Məhəmməd Əmin Rəsulzadənin, Fətəli xan Xoyskinin, Həsən bəy Ağayevin, Nəsib bəy Yusifbəylinin, Səməd bəy Mehmandarovun, Əliağa Şıxlinski və başqalarının böyük xidmətləri olmuşdur. Bu görkəmli dövlət xadimlərinin, vətənpərvər ziyalıların, peşəkar hərbçilərin adları xalqımızın yaddaşına əbədi həkk olunmuşdur.*

# Suveren Azərbaycan öz taleyinin sahibidir



Arzu və məqsədlərinin böyük hissəsini həyata keçirməyə macal tapmayan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aydan sonra Rusiya bolşevizminin açıq təcavüzü nəticəsində süquta uğramışdır. Xalqımızın azadlıq mübarizəsi boğulsa da, bu, digər ölkələrin müstəqil respublika ideyalarının formalaşmasında hərəkətverici qüvvə olmuş, xalqların və millətlərin özünüdərkində mayaka çevrilmişdir. Milli mənsubiyyətindən və dini etiqadından asılı olmayaraq bütün vətəndaşlara bərabər hüquq verilməsi, dövlət sərhədlərinin müəyyən edilməsi, dövlətçilik atributlarının qəbulu, ana dilimizin dövlət dili elan olunması, bununla yanaşı, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, ədliyyə və hərbi quruculuq sahəsində atılmış addımlar Azərbaycanın gələcək müstəqilliyi üçün möhkəm zəmin yaratmış, bu, xalqımızın uzun illər sovet rejiminin köləliyindən qurtulub, "dəmir zəncirləri" qırmaq və hürriyyətinə qovuşmaq istiqamətində böyük rol oynamışdır.

Xalqımızın illərlə davam edən müstəqillik və azadlıq arzusu nəhayət, XX əsrin 90-cı illərində reallaşdı. Lakin bütün bunlar heç də asan başa gəlmədi. Bu ideya və amal uğrunda saysız itkilər, qurbanlar verdik. Bu yolda yürümək nə qədər şərəfli idisə, onu qoruyub saxlamaq da bir o qədər çətin oldu. Bu müddət ərzində xalqımızın başına gətirilən müsibətlər, hakimiyyət uğrunda mübarizə, səriştəsiz rəhbərlər, hərc-mərclik, anarxiya, iqtisadi tənəzzül, zorla cəlb edildiyimiz müharibənin ağrıları, torpaqlarımızın itirilməsi, azadlıq uğrunda verdiyimiz şəhidlərin günbəgün artması, 1 milyondan artıq insanın öz dədə-baba yurdlarından didərgin düşməsi və daha nələr... Xalqın yeganə qurtuluş və nicatı yenidən ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişində oldu. Azərbaycanda milli dövlətçilik ənənələrinin bərpası və qorunub saxlanması, müstəqilliyimizin möhkəmləndirilməsi, ölkədə demokratik prinsiplərə əsaslanan hüquqi islahatların aparılması, bazar iqtisadiyyatına keçid, diplomatik uğurlar və ordu quruculuğu məhz bu böyük şəxsiyyətin, müdrik siyasətçinin misilsiz xidmətləri sayəsində mümkün olmuşdur.

Bunlarla yanaşı, ölkəmizi dünyada tanıdaraq beynəlxalq aləmin diqqətini özünə cəlb edən amillərdən biri də 1994-cü ildə bağlanan neft sazişi oldu. Neft ölkəsi kimi Azərbaycan beynəlxalq iqtisadi əlaqələrini etibarlı şəkildə qurmaqla dünyada özünün iqtisadi və siyasi dayaqlarını müəyyənləşdirdi. Artıq ölkəmizdə uzun illərdir neft strategiyası uğurla həyata keçirilir, bu strategiya dövlətin çiçəklənməsinə və tərəqqisinə, əhalinin rifah halının yaxşılaşdırılmasına, sosial məsələlərin birbaşa həllinə yönəlib. Bu gün Prezident İlham Əliyevin inamla davam etdirdiyi sosial-iqtisadi inkişaf strategiyası, həyata keçirilən islahatlar həm də onun yüksək idarəçilik qabiliyyətinə və mükəmməl idarəetmə təcrübəsinə dəlalət edir. Dövlət başçısı praqmatik və rasional addımları ilə respublikada demokratik proseslərə yeni nəfəs vermiş, ölkənin iqtisadi resurslarının bu yöndə səfərbər olunmasına şərait yaratmışdır. 2003-2023-cü illərdə respublikada elmi əsaslara söykənməklə həyata keçirilən siyasət sabit iqtisadi və siyasi sistemin yaradılması, sosial vəzifələrin həlli, əhalinin sosial rifah halının, alıcılıq qabiliyyətinin yüksədilməsinə, cəmiyyətdə ictimai konsensusun əldə edilməsinə yönəlmişdir. Qazanılan uğurlar Azərbaycanın davamlı surətdə demokratiya yolunda uğurla irəliləməsinə, dünya miqyasında nüfuzunun yüksəlməsinə, özünüifadəsinə geniş imkanlar yaratmışdır.

2020-ci ildə 44 günlük Vətən müharibəsində qazanılmış tarixi Zəfər təkcə döyüş meydanında deyil, həm də diplomatik cəbhədə Azərbaycanın gücünü və potensialını göstərdi. BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi və 27 il kağız üzərində qalmış qətnamələrin icrasını Azərbaycan döyüş meydanında təmin etdi. Ötən il 19-20 sentyabr tarixində həyata keçirilən uğurlu antiterror tədbirləri nəticəsində Azərbaycan öz suverenliyini tam bərpa etdi. Əgər üç il bundan əvvəl İkinci Qarabağ müharibəsi nəticəsində biz işğala son qoymuşduqsa, ötən il aprelin 23-də Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsi yaratmaqla ərazi bütövlüyümüzü tam bərpa etmişdiksə, sentyabrın 19-da suverenliyimizi təmin etdik. Dövlət müstəqilliyinin əldə edilməsi xalqımızın ən böyük nailiyyətlərindən biridir. Bu gün Azərbaycan tam müstəqil, suveren dövlət kimi istər siyasi arenada, istərsə də beynəlxalq aləmdə söz sahibidir.

**Ramidə YAQUBQIZI,**
**"Respublika".**